| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | CPSY 581, Uşaq və Yeniyetmə psixologiyası, 6 AKTS | |
| | **Departament** | Psixologiya | |
| | **Proqram (bakalavr, magistr)** | Magistr | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Təhmasib Cavadzadə | |
| | **E-mail:** | tjavadzade@gmail.com | |
| | **Telefon:** | | |
| | **Mühazirə otağı/Cədvəl** | Məhsəti küç 11, (Neftçilər korpusu) | |
| | **Konsultasiya vaxtı** | | |
| **Prerekvizitlər** | - | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology, Edited by, Thomas H. Ollendick, Susan W. White. Bradley A. White. 2019<br><br>Kaplan and Sadock's Synopsis of Psychiatry: Behavioral Sciences/Clinical Psychiatry. Benjamin J. Sadock, Virginia A. Sadock, Dr. Pedro Ruiz MD, September 3, 2014 | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| | Tətbiq etmə | | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Son tarix** | **Dəyərləndirmə** |
| | Aralıq imtahanı | 30 | 8-ci həftə |
| | Tapşırıq və testlər | 15 | Semester boyu |
| | Prezentasiya/Qrup müzakirə | 10 | Semester sonu |
| | Final imtahanı | 40 | Dekabr |
| | Davamiyyət | 5 | Semester boyu |
| | Yekun | | |
| **Kursun təsviri** | "Uşaq və Yeniyetmə Psixologiyası" fənni uşaqlıqdan yeniyetməlik dövrünə qədər olan inkişaf mərhələlərini psixoloji aspektdən araşdırır. Bu kursda tələbələr uşaqların və yeniyetmələrin emosional, sosial, idrak və fiziki inkişafını öyrənəcəklər. Fənn çərçivəsində inkişafın əsas nəzəriyyələr və yanaşmalar müzakirə olunacaq. Həmçinin ailə, məktəb və sosial mühitin uşaq və yeniyetmələrin psixoloji inkişafına təsiri təhlil ediləcək. Kurs tələbələrə | | |

| | |
|---|---|
| | inkişaf dövrlərində rast gəlinən davranış pozuntularını və psixoloji çətinlikləri anlamağa imkan verəcək. |
| **Kursun məqsədləri** | ➢ Uşaqların və yeniyetmələrin psixoloji inkişaf mərhələlərini elmi əsaslarla izah etmək.<br>➢ İnkişaf psixologiyasına dair əsas nəzəriyyələri və onların praktiki tətbiqlərini öyrənmək.<br>➢ Müxtəlif yaş dövrlərində emosional, sosial və idrak inkişafını dəyərləndirmək bacarığını formalaşdırmaq.<br>➢ Ailə, məktəb və sosial mühitin uşaqların və yeniyetmələrin psixoloji inkişafına təsirini təhlil etmək.<br>➢ Uşaq və yeniyetmələrdə rast gəlinən psixoloji çətinlikləri və davranış problemlərini aşkar edib dəyərləndirmək.<br>➢ Psixoloji müşahidə, test və digər diaqnostik metodlardan istifadə bacarıqlarını inkişaf etdirmək.<br>➢ Tələbələrə gələcəkdə pedaqoji və ya psixoloji praktikada bu bilikləri tətbiq etməyə hazırlıq yaratmaq. |
| **Təlim nəticələri** | Bu kursu uğurla tamamlayan tələbə:<br>1. Uşaqlıq və yeniyetməlik dövrlərində psixoloji inkişaf mərhələlərini ayırd edə biləcək.<br>2. İnkişaf psixologiyasına dair əsas nəzəriyyələri (Piaget, Erikson, Vygotski və s.) izah edə biləcək.<br>3. Müxtəlif yaş dövrlərində uşaqların emosional, sosial və idrak inkişafını təhlil edəcək.<br>4. Ailə və sosial mühitin inkişaf prosesinə təsirini dəyərləndirə biləcək.<br>5. Uşaq və yeniyetmələrdə rast gəlinən psixoloji problemləri tanıya və ilkin qiymətləndirmə apara biləcək.<br>6. Psixoloji müşahidə və diaqnostik metodlardan istifadə bacarığına yiyələnəcək.<br>7. Uşaq və yeniyetmələrlə işləyən mütəxəssis kimi etik davranış qaydalarını tətbiq edəcək. |
| **Qiymətləndirmə meyarları** | Kurs çərçivəsində tələbələrə müxtəlif tapşırıqlar, prezentasiyalar, testlər və dərs zamanı aparılan sual-cavab sessiyaları təqdim olunacaq. Prezentasiyalar tələbələrin seçilmiş mövzu üzrə araşdırma aparmaq və onu auditoriyaya təqdim etmək bacarığını inkişaf etdirməyə yönəlib. Prezentasiyaların məzmunu, təqdimat tərzi və vaxtında yerinə yetirilməsi əsas qiymətləndirmə meyarlarıdır. Bu qaydalar tələbələrə dərs zamanı ətraflı şəkildə izah olunacaq.<br>Bundan əlavə, semestr ərzində keçiriləcək testlər tələbələrin nəzəri biliklərini ölçəcək. Dərs zamanı iştirak və sual-cavablarda aktivlik isə tələbənin mövzuya marağını və dərsi mənimsəmə səviyyəsini qiymətləndirmək məqsədi daşıyır.<br>Ümumilikdə, qiymətləndirmə prosesi tələbənin həm nəzəri, həm də praktiki bilik və bacarıqlarını kompleks şəkildə əhatə edəcəkdir. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | • Dərsə hazırlıq vacıbdir.<br>• Dərsdə keçirilən mövzu ilə əlaqədar hissələri izah etmək, verilən ədəbiyyatı oxumaq, movzu ilə əlaqədar suallara cavab vermək lazımdır. Grup içi müzakirələrdə fəal iştirak etmək , verilen tapşırıqları yerinə yetirmək əsasdır.<br>• Dərsdə testlərin tətbiqi ilə əlaqədar tapşırıqlar ediləcək.Bunlarda fəal iştirak etmək vacibdir. |

| | |
|---|---|
| | • İmtahanında köçürmək qadağandır. Köçürən tələbələrin nəticələri ləğv olunur.<br>• Tələbələrin sinifdə etik olmayan müzakirə və davranışları qadağandır.<br>Fəallıq balları: tələbələr onlara verilən tapşırıqların yeriyə yetirilməsindən və ümumi muzakirələrə qoşulmalarından asılıdır.<br>olaraq tətbiq edə bilməsi və ya analız edə bilməsindən asılıdır.<br>Tapşırıq balları: dərs ərzində tələbələrə verilən verilən tapşırıqlar və araşdırmalar əsasında veriləcək.<br>Prezentasiya: tələbələr aşağıdakı hallara diqqət etməlidir:<br>1. Verilən mövzularda prezentasiya təqdim etməlidir.<br>2. Təqdim olunan prezentasiya verilən mövzuya aid olmalıdır.<br>3. Referatlar və prezentasiya vaxtında təqdim olunmalıdır.<br>4. Prezentasiyalarda material standartlara uyğun olmalıdır.<br>5. Prezentasiyada istifadə olunan ədabiyyat qeyd olunmalıdır.<br>6. Prezentasiyalarda mötəbər mənbələrdən istifadə olunmalıdır. |

**Cədvəl**

| **Həftə** | **Fənnin mövzuları** | **İstifadə olunan ədəbiyyat** |
|---|---|---|
| 1 | Uşaq və yeniyetmə klinik psixologiyasına giriş.<br>Uşaq və yeniyetmə clinik psixologiyasının tarixi | Kaplan and Sadock's Synopsis of Psychiatry: pages 2276-2285<br>The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 3-17 |
| 2 | İnkişaf psixologiyası | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 17-31 |
| 3 | İnkişaf və Psixopatologiya | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 31-42 |
| 4 | Psixopatologiyanın təsnifatı və diaqnostikası | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 42-54 |
| 5 | Qiymətləndirmə və işin konseptuallaşdırılması | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 67-79 |
| 6 | Etik və hüquqi məsələlər | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 107-120 |
| 7 | Uşaq və yeniyetmə psixi sağlamlıq pozğunluqlarının sosial məsələləri | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 136-164 |
| 8 | **Midterm imtahanı** | |

| | | |
|---|---|---|
| 9 | Zehni inkişaf geriliyi | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 165-177 |
| 10 | Ünsiyyət pozuntuları | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 177-190 |
| 11 | Ünsiyyət pozuntuları: Neyro inkişaf pozuntuları | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 190-204 |
| 12 | Diqqət əksikliyi və hiper aktivlik pozuntusu və Autizm Spektr | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 204-235 |
| 13 | Şizofreniya spektr və Əhval ruhiyyə pozuntuları | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 250-280 |
| 14 | Obsessiv kompulsiv pozuntu<br><br>Tələbələrin Prezentasiyalarının təqdimatı | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 309-329 |
| 15 | Psixoloji travmalar.<br><br>Tələbələrin Prezentasiyalarının təqdimatı | The Oxford Handbook of Clinical Child and Adolescent Psychology. Pages 329-350 |
| 16 | **Final imtahanı** | |